

# Ürək

*Təranə Arifqızı*

**Hekayə**

...Əlində, ovcunda döyünən ürək tutmuşdu. "Bu anamın ürəyidi. O, ölməyib, yaşayır" - deyə- yuxuda hay salmışdı. Kimsə avtomobil qəzasında ölənlərin ürəyinin ölmədiyini demişdi. Yuxudan ayılmışdı.

Fikirləşdikcə gözləri dolub boşalırdı. Gah həyətdə, gah mətbəxdə gözünün yaşını silir, anası görməsin deyə, özünü tox tutmağa çalışırdı. Ağlındakını dilə gətirməyə həm qorxur, həm də fikirləşdikcə ürəyi yerindən çıxmaq istəyir, sanki qaranlıq qəfəsə düşdüyünü hiss edirdi. Bəs nə fikirləşirdi?

Neçə vaxtdı hərdən ürəyi də sancırdı. Öz-özünə- "Sən möhkəm olmalısan, dimdik durmalısan, zamanla hər şey ötüb keçəcək... " deyirdi. Keçəcəkmi? Hələ bilmirdi. Axı dərin yaraları zamanın sağaltdığını deyirlər? Yox, bu yara qaysaq bağlaya bilər, amma heç zaman sağala bilməz. Heç zaman!.. Gözləri tez-tez bir nöqtəyə zillənib qalır, düşdüyü ağrı dolu məchuldan çıxa bilmirdi. Kimə deysin? Yuxusunu kiməsə danışmalıydı, kimdənsə məsləhət almalıydı. Yox, danışsa, sakitləşdirib, "yuxudu"- deyəcəkdilər. O isə...

"Avtomobil qəzasında ölənlərin ürəyi ölmür..." Ölmür, ölmür- deyə tez-tez təkrarlayırdı. Bəlkə onun da ürəyi... ...Evdən, - "marketə gedirəm"deyib, əlinə bir şüşə su götürüb çıxdı. Məzarlığa on-on beş dəqiqəyə çata bilərdi. Asfalt yola çıxıb, heç kimin üzünə baxmadan, az qala qaçaraq getməyə başladı. Nə etdiyini, nə edəcəyini düşünməyə imkan tapınca yolu yarılamışdı. "Qardaşım, canım, nəfəsim sağdır, yaşayır. Tez çatmalıyam, nəfəsi yenidən gizlənə bilər." Özünü onun yerinə qoyurdu, nəfəsi çatmırdı . Kimsə salam verdi, kimsə kefini soruşdu. Fikri dağınıq halda, "sağ olun"- deyib keçdi.

Qəbiristanlığın beş-on addımlığında daha da həyəcanlandı. Dəmir barmaqlı qapını açıb, sira ilə düzülmüş qəbirlərin yanı ilə sürətlə qaçmağa başladı. Kənardan qara mərmər üstündə ayaqüstə dayanıb, onu agrı dolu nəzərlərlə süzən, "getmə qızım, getmə..."- deyən baxışları ilə onun yolunu kəsməyə çalışan, qəddi əyilmiş atasının məzarına dönüb baxmadı da...

Qardaşın, sükuta təslim olan, yalnız daşların danışdığı bu yerin aşağı tərəfində dəfn etmişdilər. Sağ tərəfində özu yaşda cavanın, sol tərəfində qonşuları Əyyub əminin qəbri vardı. Qəbrin üstundəki günəşdən bozarmış qırmızı örtük, bir də qurumuş qərənfillər xəfif payız küləyndən titrəyirdi.. Çatıb, bir anlıq dayandı. Birdən yerə sərilib, qulağını məzarın yuxarı tərəfinə, qardaşının sinəsinə dayadı, sanki ürək döyüntüsünü eşidər kimi oldu. Hövüllə torpağı ikiəlli kürüməyə başladı. Torpaq bərkimişdi, amma içindəki təlatüm, həyəcan, ağrı və hardasa bir ümid işığı... hər şeyi yaddan çıxarmışdı. Torpaq bbərkimişdi, amma içindəki təlatüm, həyəcan, ağrı və hardasa bir ümid Nə ətrafındakı daş insanların narahat ürək döyüntülərini, nə də payızın xəzan otlarında heyvanlarını otaran çobanın ucadan oxutduğu şən mahnını eşidirdi. Dəli kimi ikiəlli qazırdı..."Sağdır, qoymaram, qoymaram, qoymaram..." -

Artıq əli səliqə ilə düzülmüş taxtalara toxunurdu. "Az qalıb, onu görəcəm... o qalxacaq... onun boynuna sarılacağam...doyunca öpəcəyəm..." Huşunu itirməyə başlayırdı... ...onun çox sevdiyi üzünü torpaq, qırmızı yanaqlarını zəfəran rəngində görəndə , necə çığırdısa...

Deyəsən yubanmışdı. Gec idi, çox gec idi...

...Qan-tər içində, evdə, divanın küncündə ayıldı. Ürəyi sanki ovcundaydı...qulağına anasının həzin, ağlar səsi gəlirdi:

**Mən aşıq, oy, ana, sən,**
**Yatıbsan, oyanasan,**
**Gedənlər qayıtmadı,**
**Gəl, getmə, oyana sən...**

Ədalət.- 2020.- 15 yanvar. S. 4.